

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

27 İYUL 2024-cü il | ŞƏNBƏ | № 157 (7915) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ




# Müasir Azərbaycanın yenilənən yol infrastrukturu

## Bu, ölkəmizin davamlı inkişafını, iqtisadi gücünü nümayiş etdirir

*Azərbaycanda yol infrastrukturunun inkişafı, bərpası, yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər böyük sürətlə davam etdirilir. Həyata keçirilən məqsədyönlü layihələr nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə tikilərək istismara verilir. Bir sözlə, ən müasir yol-nəqliyyat infrastrukturu qurulur. Respublikamızın paytaxtında, eləcə də regionlarda kənd və qəsəbələri birləşdirən yolların, yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına ayrılan diqqətin nəticəsində yol şəbəkəsi genişlənir, infrastruktur təzələnir. Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətini də göstərir.*

Son illər beynəlxalq tədbirlər məkanına çevrilmiş Bakının avtomobil yollarının səliqəli, rahat və gözoxşayan olması xarici qonaqlarda da xoş ovqat yaradır. Azərbaycanın simasını başdan-başa dəyişən abad və müasir yollar ölkəmizin inkişafı üçün vacib amildir. Elə bu səbəbdən də yol infrastrukturunun yenidən qurulması daim prioritetdir. Ölkə başçısı İlham Əliyev yolların mühüm əhəmiyyət kəsb etdiyini belə vurğulayıb: "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil". Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası nəticəsində yol qurğularının, eləcə də ölkənin bütün regionlarını və yaşayış məntəqələrini birləşdirən avtomobil yollarının yenidən qurulması və tikintisi üzrə irimiqyaslı layihələr həyata keçirilir. Bütün bu işlər ölkə Prezidentinin həmişə diqqət mərkəzində olub. "Azərbaycanda ən müasir nəqliyyat-yol infrastrukturu yaradılacaq", - deyən ölkə başçısı İlham Əliyevin Sərəncam və tapşırıqları ilə ölkəmizdə yol infrastrukturu müasirləşir. Ölkə Prezidenti son illər dəfələrlə bölgələrə səfər edib, respublika və yerli əhəmiyyətli yolların yenidən qurulması, hətta ucqar dağ kəndlərinə yeni yolların çəkilməsi üçün konkret tapşırıqlar verir.

Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri məhz yol infrastrukturunun müasir standartlar səviyyəsində yenidən qurulmasıdır. Bu prioritetin icrası məqsədilə Azərbaycan büdcəsindən hər il böyük həcmdə vəsait ayrılır. Həmin vəsaitlər hesabına Azərbaycanda dünya standartlarına uyğun, yüksək keyfiyyətli avtomobil yolları salınır. Son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və əsaslı təmir edilib. Bu göstərici ilə Azərbaycan bir çox inkişaf etmiş ölkələri qabaqlayır. Davos İqtisadi Forumunun hesablamalarında da yol infrastrukturunun keyfiyyətinə görə, Azərbaycan dünyada 34-cü yerdədir. Bakı şəhəri, o cümlədən respublikanın avtomobil yollarında yerüstü və yeraltı piyada keçidlərinin inşası davam etdirilir. Sözügedən keçidlər metal və dəmir konstruksiyalı olmaqla həm avtonəqliyyat vasitələrinin, həm də piyadaların intensiv hərəkət etdiyi ərazilərdə inşa olunur.

(davamı 3-cü səhifədə)

# Müasir Azərbaycanın yenilənən yol infrastrukturu

## Bu, ölkəmizin davamlı inkişafını, iqtisadi gücünü nümayiş etdirir

**(əvvəli 1-ci səhifədə)**

İndiyədək Bakı şəhərində 41-i yerüstü, 72-si isə yeraltı olmaqla, ümumilikdə 113 piyada keçidi tikilib. Respublika əhəmiyyətli magistral yollarda isə 64 yeraltı və yerüstü piyada keçidi inşa edilərək vətəndaşların istifadəsinə verilib. Rayon və şəhərlərin daxilində - Quba, Qəbələ və Zaqatalada isə 3 piyada keçidi inşa edilib.

Yeni çəkilən və əsaslı surətdə qurulan yollar, avtobus dayanacaqları piyadaların təhlükəsizliyi və rahatlığının təminində böyük əhəmiyyət kəsb edir. Regionda yük və sərnişin daşımalarını xeyli yaxşılaşdırıb, bölgədə turizmə və sosial-iqtisadi inkişafa təkan verib. Azərbaycana gələn turistlər rahat və müasir magistral yollarla səfərlərini uğurla başa vururlar. Belə ki, Qubanın Xınalıq kəndinə, İsmayıllının Lahıc qəsəbəsinə, Qusarın "Şahdağ" Qış-Yay Turizm Kompleksinə, Şəkinin Kiş Alban məbədinə və digər gözəl məkanlara rahat yollar çəkilib.

Lənkəran-Lerik, Masallı-Yardımlı, Gəncə-Daşkəsən-Xoşbulaq, Quba-İspik-Xınalıq, Şamaxı-Pirqulu, Tovuz-Əlibəyli, Şəmkir-Gədəbəy, İsmayıllı-Qəbələ, Xaldan-Mingəçevir, Ağdaş-Ləki, Quba-Qəçrəş-Qımılqazma, Qəbələ-Ağdaş, Oğuz-Qəbələ, Quba-Qusar, Şəki-Qax, Ağstafa-Poylu-Gürcüstan sərhədi, Yevlax-Bərdə və digər avtomobil yolları yenidən qurulmuş, ölkədaxili yol infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Yol infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü və sistemli tədbirlərin nəticəsi olaraq avtomobil yollarının tikintisi, yenidənqurulması, təmiri üzrə işlərin həcmi ildən-ilə artır. Son illərin göstəricilərinə nəzər yetirdikdə statistik rəqəmlər də 10 ildə müsbət dəyişikliklər baş verdiyini bir daha təsdiqləyir.

2020-2021-ci illərdə tikintisinə və yenidən qurulmasına başlanmış Ucar, Qəbələ, Hacıqabul, Goranboy, Daşkəsən rayonları ərazisində yerləşən ümumi uzunluğu 191 km olan, 56,8 min nəfər əhalinin yaşadığı 35 yaşayış məntəqəsinin birləşdirən 5 kəndlərarası avtomobil yolu layihəsi, habelə Abşeron, Ağstafa, Biləsuvar, Saatlı, Yevlax, Qazax, Bərdə, Neftçala və Cəlilabad rayonları ərazisində yerləşən, ümumi uzunluğu 111,5 km olan, 97,2 min nəfər əhalinin yaşadığı 32 yaşayış məntəqəsini birləşdirən 9 kəndlərarası avtomobil yolu layihəsi 2022-ci ildə başa çatdırılaraq istifadəyə verilib.

Əsas diqqət işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasına yönəlib və bu sahədə yeni texnologiyalardan istifadə olunur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrində ümumi uzunluğu 66 kilometrə yaxın 39 avtomobil tunelinin inşası həyata keçirilir. Azad olunan ərazilərdə ən böyük yol layihələrindən biri Füzuli rayonundan Şuşa şəhərinə çəkilən "Zəfər" yoludur. Uzunluğu 101 kilometr təşkil edən "Zəfər yolu", 2 hərəkət zolaqlı olmaqla ikinci texniki dərəcəyə uyğun inşa edilib. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə, "Zəfər yolu" Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır. Prezident İlham Əliyev 2022-ci il noyabrın 7-də Şuşaya səfəri çərçivəsində yolun açılışını edib. Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 149-cu kilometrindəki Əhmədbəyli kəndindən başlayır və Füzuli şəhəri, Böyük Tağlar kəndi, Topxana meşəsi və Daşaltı kəndindən keçərək Şuşa şəhərinə çatır. Əvvəllər bu yol olmayıb. Vətən müharibəsində Azərbaycan əsgərinin canı və qanı bahasına açdığı cığırın izi ilə salınıb bu yol... Böyük Qələbədən 8 gün sonra - noyabrın 16-da qalib Sərkərdə Füzuli və Cəbrayıla səfəri zamanı İlham Əliyevin "Zəfər yolu" adlandıraraq təməlini qoyduğu bu yolla indi qürurla irəliləyərək mədəniyyətimizin paytaxtı Şuşaya, Cıdır düzünə qalxmaq olur. Qüdrətli Azərbaycan dövləti 101.9 kilometrlik dağlıq ərazilərdən keçən yolu cəmi bir ilə çəkib başa çatdırıb. İşğaldan azad edilmiş ərazilərdə icra olunan yol infrastrukturu layihələrindən biri də Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun layihə uzunluğu 80.7 kilometr təşkil edir.

Digər bölgələrdə də bir çox infrastruktur layihələrinin icrası istiqamətində işlər görülüb. Cari ilin aprel ayında Hacıqabul-Muğan avtomobil yolunun yenidən qurulması 32 min əhalisi olan 2 yaşayış məntəqəsi arasında əlaqəni gücləndirməyə xidmət edir. Yenidən qurulması yolla əhalinin həm Bakı-Ələt-Qazax - Gürcüstanla dövlət sərhədi yoluna, həm də Hacıqabul-Şirvan yolu vasitəsilə digər şəhər və rayonlara rahat çıxışı təmin olunur. Respublika əhəmiyyətli belə layihələrin icrası davam edir. Ötən il avqustun 7-də Azərbaycan Prezidenti İlham Əliyev "Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolunun Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi hissəsinin 4 zolağa genişləndirilməsi layihəsi" çərçivəsində yenidən qurulan, ümumi uzunluğu 102 kilometr olan Gəncə-Qazaxbəyli hissəsinin açılışında iştirak edib. Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolu beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycandan keçən tərkib hissəsi olmaqla, Avropa-Asiya və Yaxın Şərq ölkələri ilə, həmçinin respublika ərazisində bu istiqamətdə əlaqələrin inkişafında mühüm rol oynayır. Layihə tam reallaşdırıldıqdan sonra Şərqdən Qərbə və əks istiqamətdə "Böyük İpək yolu"nun Azərbaycandan keçən hissəsi olan bu yol Avropa ilə Asiya arasında avtomobillə beynəlxalq və daxili yükdaşımaların artmasında önəmli rol oynayacaq.

Ümumilikdə isə ötən il ərzində 803,5 kilometr uzunluğunda avtomobil yolları, prospekt və küçələr tikilib, yenidən qurulub və təmir olunub: respublika əhəmiyyətli - 234,3 kilometr, yerli əhəmiyyətli - 398 kilometr, Bakı şəhər yolları 171,2 kilometr. Tədbirlər Planına uyğun olaraq, layihələrdən 12-nin icrasının 2023, 2 layihənin 2024, 3 layihənin 2025, 1 layihənin isə 2026-cı ildə başa çatdırılması nəzərdə tutulub. Prezident İlham Əliyev Azərbaycanda beynəlxalq standartlara cavab verən yolların tikintisini əsas məsələ kimi gündəmdə saxlayır. Mühüm məqamlardan biri də odur ki, bu layihələr qısa müddətdə və yüksək keyfiyyətlə icra olunur.

**Mustafa KAMAL, "Respublika".**










